# Qida Təhlükəsizliyinin təminində hüquqi təkmilləşmə gücləndirilir

Dünən Milli Məclisin Aqrar siyasət komitəsinin iclasında komitənin sədr müavini Eldar Quliyev “Dövlət rüsumu haqqında”, “Lisenziyalar və icazələr haqqında” və Torpaq Məcəlləsində dəyişikliklər edilməsi barədə qanun layihələrini müzakirəyə təqdim etdi.

Əvvəlcə “Dövlət rüsumu haqqında” qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsindən danışıldı. Bildirildi ki, qida təhlükəsizliyi sahəsində idarəçiliyin təkmilləşdirilməsi, bu sahədə dövlət orqanlarının səlahiyyətlərinin dəqiqləşdirilməsi məqsədilə “Baytarlıq haqqında”, “Fitosanitar nəzarəti haqqında” və “Yeyinti məhsulları haqqında” qanunlara dəyişikliklər qəbul edilib, eyni zamanda, Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnaməyə dəyişikliklər və əlavələr olunub. Adıçəkilən normativ hüquqi aktlara əsasən agentliyə bir sıra səlahiyyətlərlə yanaşı, ölkədə qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi baxımından qeydiyyata alınması və onların dövlət reystrinin aparılması, eləcə də qida təhlükəsizliyi, baytarlıq və fitosanitar sertifikatlarının verilməsi səlahiyyətləri də verilib. Vurğulandı ki, “Dövlət rüsumu haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi qeyd olunan normativ hüquqi aktlara uyğun olaraq hazırlanıb.

Qanun layihəsinə əsasən bir sıra mövcud rüsumlar artırılacaq. Buraya baytarlıq və fitosanitar sertifikatının, baytarlıq preparatlarına, həmçinin pestisidlərə, bioloji preparatlara və aqrokimyəvi maddələrə qeydiyyat şahadətnaməsinin və idxal karantin icazəsinin verilməsinə görə dövlət rüsumları aiddir.

Sonra “Lisenziyalar və icazələr haqqında” qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsinə baxıldı. Diqqətə çatdırıldı ki, sənəddə “Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı”nın bir sıra maddələrində nəzərdə tutulan icazələrin dəqiqləşdirilməsi nəzərdə tutulub.

Deputatlardan Hüseynbala Mirələmov, Tahir Süleymanov, İqbal Məmmədov və digər komitə üzvləri hər iki qanun layihəsinə fikir və təkliflərini səsləndirdilər. Qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olundu.

Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə gəlincə isə qeyd edildi ki, sənədə “Əkin yerinin yandırılması qadağandır” məzmunlu yeni maddə əlavə edilir. Bu maddəyə görə torpaqların vəziyyətinə zərərli təsir göstərə bilən təzə tikililər, qurğular və yenidən qurulan obyektlər yerləşdirilərkən, layihələşdirilərkən, tikilərkən və istismara verilərkən, habelə yeni texnologiyalar tətbiq edilərkən torpaqların mühafizəsi sahəsində zəruri tədbirlər nəzərdə tutulmalı və həyata keçirilməlidir.

Torpaqların tənəzzülə uğramadan, dağıdılmadan qorunması tədbirləri ilə təmin edilməmiş obyektlərin və texnologiyaların istismara verilməsi tətbiq edilməsi qadağan olunur. Torpaqların vəziyyətinə zərərli təsir göstərə bilən obyektlərin yerləşdirilməsi aidiyyəti olan torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri, eləcə də müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılır. Torpaqların mühafizəsi qaydaları müvafiq normativ hüquqi aktlarla müəyyən edilir.

Müzakirələrdən sonra qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə edildi.

***Səbinə MƏMMƏDOVA,***
***“Azərbaycan”***

Azərbaycan.- 2018.-19 may.- S.5.